ƏLİ MÜTƏLLİMOĞLU

# ŞƏHİDLƏRİM BÖLÜNMƏYƏN VƏTƏNDİR

*Şeirlər, qəzəllər, mahnılar*

QANUN NƏŞRİYYATI

**Əli Mütəllimoğlu. Şəhidlərim bölünməyən Vətəndir**
Bakı, Qanun Nəşriyyatı, 2026, 160 səh.

Ölçü: 130x200 mm
Cild: qalın
Çapa imzalandı: 04.06.2026

Mətn dizaynı: Gülnar Zahid
Qapaq dizaynı: Rövşən Abbas

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

Kitab müəllif tərəfindən redaktə və korrektə edilərək nəşriyyata təqdim olunub. Redaktə, korrektə və məzmun məsələlərinə görə müəllif məsuliyyət daşıyır.

ISBN 978-9952-15-043-8

© Qanun Nəşriyyatı, 2026
© Əli Mütəllimoğlu, 2026

*Əli Mütəllimoğlunun bu kitabında vətən sevgisi, milli birlik, şəhidlərin əziz xatirəsi, müəllimə və el-obaya hörmət, dostluq, sevgi və mənəvi dəyərlər poetik dillə tərənnüm olunur. Müəllif oxucunu həm düşündürən, həm də ruhlandıran şeirləri ilə insanı doğma yurda, ailəyə və ülvi hisslərə daha sıx bağlayır. Kitabda yer alan şeirlər səmimiyyəti, vətənpərvərlik ruhu və həyat müşahidələrinin dərinliyi ilə seçilir. Müxtəlif illərdə qələmə alınmış bu poetik nümunələr müəllifin zəngin mənəvi dünyasını, xalqına və insanlığa olan sevgisini dolğun şəkildə əks etdirir.*

## Şəhidlərim - bölünməyən Vətəndir

*(Şəhidlərimizi bölgələrə bölənlərə cavab)*

Vətənimi bölük-bölük edənlər,
Şəhidlərim bölünməyən Vətəndir.
Cılız hisslər ardıyıcan gedənlər,
Şəhidlərim bir ürək, bir bədəndir.

Ayırmayaq şəhidləri kəndlərə,
Şəhidlərlə qapanıbdır bənd-bərə,
Bölünməyək bundan sonra min yerə,
Şəhidlərim Vətənlə, xalqla təndir.

Vətən adlı ən ülvü nəğməmizdir,
Sənsən, mənəm, bütövlük rəmzi – “biz”dir,
Şəhidlərim dağım, düzüm, dənizdir,
Gül qoxulum – ürəklərdə bitəndir.

Bir şəhidə həsr olunan nəğmədə,
Ölməz ruhlü şəhidlərin adı var.
Şəhidlərim yatan hər bir türbədə,
Vətənimin qoxusu var, dadı var.

Gəl bölməyək şəhidləri kəndlərə,
Şəhidlərim bütövləşən Vətəndir.
Bir nəğməni bölüşsək də min yerə,
Şəhidlərim bir qəlbdir, bir bədəndir!

*13.01.2021-ci il*

## Mübarizim

*(Azərbaycanın Milli Qəhrəmanı, şəhid*
*Mübariz İbrahimova ithaf olunur).*

Sən Vətən oğlusan, Vətəndir anan,
Vətən övladıdır vətənçün yanan,
Vətən keşiyində məğrur dayanan
Yenilməz oğulsan sən – Mübarizim.

İbrət dərsi keçdin hər bir insana,
Tanıtdın yurdunu bütün cahana,
Əbədi şöhrətsən Azərbaycana,
Qeyrət simvolusan sən – Mübarizim.

Şəhadət təlimin Hüseyndən aldın,
Vətən sevgisiylə göyə ucaldın,
Vətənlə gül açar arzu-muradın,
Səadət yolusan sən – Mübarizim.

Peyğəmbər soyudur pak olan nütfən,
Vətəndir, anadır mərdliyinlə tən,
İgid ərənlərin unutmur Vətən,
Ölməzsən, ulusan sən – Mübarizim!

## İki Mübarizim, iki əzizim

*(Mübariz İbrahiımov və Mübariz Mənsimov)*
*(Mübariz Mənsimovun ad günü münasibətilə)*

Şöhrətim, vüqarım, qeyrət nişanım,
İki Mübarizim, iki əzizim.
Basılmaz qalamdır, bükülməz dizim,
İki Mübarizim, iki əzizim.

Biri ölməzliyə aparan yolum,
O biri xeyirçün uzanan qolum.
Düşmənlə cəngdə həm sağım, solum,
İki Mübarizim, iki əzizim.

Yağının gözünə batan xəncərim,
Düşmənin önündə əyilməz nərim,
Leşkər qarşısında duran sərvərim,
İki Mübarizim, iki əzizim.

Qeyrət simvolu tək yaşar qəlblərdə,
Adları Vətənçün dəvadır dərdə,
Ölməzlik rəmzi tək gəzər dillərdə,
İki Mübarizim, iki əzizim.

*28.01.2020-ci il*

## **Vətən naminə**

*(Nişanlı şəhidlərimizə ithaf edirəm).*

Bir sevgi ürəkdə inlədi, susdu,
Nakam məhəbbəti yaşatmaq üçün.
Bir oğul səngərdə düşməni pusdu,
Bir oğul heykələ döndü vətənçün.

Nə qədər baxışlar ilişib qaldı,
Getdiyiz yolların ləpirlərində.
Nə qədər gözəllər vaxtsız qocaldı,
Pak eşqi qəlbində, gül əllərində.

Xəzanı gül açan bahardı Vətən,
Ölsək də yaşarıq çiçəklərində.
Bizlərə əvəzsiz bir yardı Vətən,
Bir sirli aləmdir, eşqi dərində.

Sərhədlər boyunca düzülüb səf-səf,
Vətən sevgisiylə heykələ dönək.
Vətən sevgisiylə qoy şəhid ölək,
Düşmənə keçilməz bir dağ görünək.

Sevən gözəllərin baxtı gül açsın,
Dərddən ağarmasın şəvə saçları.
Oğul, qız naz ilə ardıycan qaçsın,
Başına yağmasın hicranın qarı.

Şəhid arzuları gül tək açılsın,
Vətən laləzara dönsün hər zaman.
Şəhid qanı ilə süslənən Vətən,
Düşmənçün məzara dönsün hər zaman!

*15.09.2020-ci il*